Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənilər Qarabağı döyüşsüz təslim etmək zorunda...

**Ermənistan daxilində getdikcə dərinləşən ziddiyyətlərin, "Qarabağ klanı" ilə baş nazir Nikol Paşinyan arasında kəskinləşən qarşıdurmanın Dağlıq Qarabağ münaqişəsinə hansı formada təsir göstərəcəyi də xüsusi diqqət mərkəzində yer almağa başlayır. Hesab edilir ki, hadisələr indiki məcrada inkişaf edərsə, daxili qarşıdurmalar səbəbindən Ermənistan, eləcə də zəbt edilmiş Azərbaycan ərazilərində yaradılmış separatçı rejim daha da zəifləyəcək.**

Bu vəziyyətdə işğalçı ölkənin indiki Qarabağ siyasətini davam etdirməsi də mümkünsüz sayılır.

Hazırda proseslərin təhlili bu qənaətə gəlməyə əsas verir ki, qarşıdakı dövr ərzində erməni tərəfi daha böyük parçalanmalara məruz qalacaq. "Qarabağ klanı" bütün bu baş verənlərdə əsas günahkar qismində Paşinyanı görür və fəaliyyətini də elə bu istiqamətdə qurur. Erməni parlamentinin sabiq sədri, Respublika Partiyasının ali orqanının üzvü Qalust Sahakyan bu xüsusda bildirir: "Biz bütün istiqamətlərdə iflasa gedirik. Bura Qarabağ münaqişəsi ətrafında yaranan vəziyyət də daxildir. Səbəb ölkədə diktatura rejiminin qurulmasıdır. Bu gün Ermənistanda parlament yoxdur, yalnız nə isə etməyi "bacaran" Paşinyan mövcuddur". Onun sözlərinə görə, ölkə Paşinyanın əlindədir və hökuməti o idarə edir:

"Ermənistanda parlament, hökumət yoxdur. Ölkədə baş verən böhranın bir gün düzələcəyinə ümid edirəm. Lakin bu proses Paşinyan hakimiyyətdən gedəcəyi təqdirdə mümkün olacaq".

Ermənistanın "Joğovurd" nəşri yazır ki, "Qarabağ klanı" ilə Paşinyanın daha qanlı toqquşması gələn il baş verəcək. Çünki gələn il işğal alıındakı ərazilərdə "prezident seçkiləri" keçiriləcək. Bu zaman Paşinyan və "Qarabağ klanı" separatçı rejimin başına öz adamlarının gəlməsini istəyir. Xatırladaq ki, Paşinyanın əsas namizədi qondarma qurumun keçmiş "müdafiə naziri" Movses Akopyandır. "Qarabağ klanı" isə separatçıların başında Qarabağ "Təhlükəsizlik Şurasının" rəhbəri Vitali Balasanyanı görmək istəyir. Ermənistanın "Jamanak" nəşri yazır ki, Vitali Balasanyana "Qarabağ klanı" hərtərəfli dəstək verir. Onu sabiq prezidentlər Robert Köçəryan və Serj Sarksiyan tam şəkildə dəstəkləyir. Hətta "Jamanak" yazır ki, artıq sabiq müdafiə naziri Seyran Ohanyan da onlara qoşulub: "Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyan ikinci prezident Robert Köçəryanla eyni komandada fəaliyyət göstərir. Bu fonda Vitali Balasanyanın namizədliyinin xeyrinə aparılan təbliğat kampanyasına Seyran Ohanyan da fəal şəkildə qoşulub. Ohanyan Köçəryanla eyni komandada fəaliyyət göstərir. Onlar seçkilərin yekun mərhələsində fəallaşmağa qərar veriblər". "Jamanak" yazır ki, "Qarabağ klanı" istənilən yolla Vitali Balasanyanı separatçıların rəhbəri postuna gətirməyə çalışır: "Paşinyan anlayır ki, belə vəziyyətdə Qarabağdakı rejimə öz şərtlərini diqtə edə bilməyəcək. Vitali Balasanyan və onun ətrafında toplaşmış güclü qruplaşma Movses Akopyana qalib gələ bilər". Nəşr qeyd edir ki, Paşinyan Akopyanın güclü rəqibi olduğunu yaxşı anlayır: "Paşinyan anlayır ki, Vitali Balasanyan və onun ətrafında toplaşmış güclü qruplaşma Movses Akopyana qalib gələ bilər. Akopyan Balasanyanın qruplaşmasına qarşı çıxmaqdan qorxmur və qruplaşma tərkibində mümkün təhdidlərə yer verməyəcək. Bu fonda o, həm də Paşinyandan dəstək gözləyir".

"Jamanak" yazır ki, belə vəziyyətdə Paşinyan Qarabağda vəziyyəti qarışdırmağa çalışır. O, Dağlıq Qarabağda Silahlı Qüvvələrin keçmiş komandanı Samvel Babayan vasitəsilə burada aksiyalar təşkil edib, "Qarabağ klanı"nın mövqeyini sarsıtmağa cəhd göstərir. Nəşrə görə, qondarma qurumun "milli təhlükəsilik xidməti" 2020-ci ildə "seçki"lərdə iştirak etmək arzusunda olan qüvvələrə və şəxslərə ayıqsayıqlıq çağırışı edib: "Maraqlıdır ki, Qarabağda bu çağırışın Samvel Babayana ünvanlandığını hesab edirlər. Artıq Babayanın Qarabağda mitinqlərin keçiriləcəyi barədə bəyanat verdiyi bildirilir. Belə mitinqlərlə Qarabağda vəziyyəti destabil hala gətirmək olar. Bu metod ötən il Ermənistanda uğurla sınaqdan keçib və hakimiyyət dəyişikliyinə səbəb olub". "Qarabağ klanı" buna cavab olaraq Paşinyan iqtidarı daxilində ziddiyyətlərin yaranmasına çalışır. Elə erməni politoloqları da hesab edirlər ki, yaxın vaxtlarda Ermənistanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq. Çünki, bir tərəfdən iqtidarda olan "Vətəndaş müqaviləsi" partiyasında vəzifələr uğrunda çəkişmələr güclənib, digər tərəfdən isə Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradır. "Qarabağ klanı" məhz bu vəziyyətdən yararlanıb, hakimiyyət daxilində ziddiyyətlərin güclənməsinə nail olmaqla Paşinyanın mövqeyini zəfilətməyə çalışır.

Politoloq Armen Badalyan qeyd edir ki, Paşinyan hökumətinin daxilində çəkişmələr getdikcə artır və bu da "Qarabağ klanı"nın lehinə işləyir. Onun sözlərinə görə, Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini etiraf edib. Bu isə, öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur: "İndi "Qarabağ klanı" bütün bunlara dair cəmiyyətdə geniş təbliğat işi aparır. Bu cür şəraitdə hakimiyyətdaxili mübarizənin güclənməsi labüddür. "Qarabağ klanı"nın istədiyi də elə budur. Çünki bununla Paşinyanı daha tez hakimiyyətdən salacaqlarını düşünürlər".

Erməni politoloq yaranmış vəziyyətin daha bir təhlükəli nüansını diqqətə çatdırıb. Belə ki, Paşinyanın ölkənin rayonlarında olan bəzi tərəfdarları həm yüksək nüfuza, həm də silahlı dəstələrə malikdir. Armen Badalyan bu yaxınlarda Kotayk vilayətində Sasun Mikaelyan və Romanos Petrosyan arasında hakimiyyət uğrunda mübarizəni də misal gətirib. Onun sözlərinə görə, əvvəllər siyasətdən və ideologiyadan uzaq və yalnız vəzifə bölgüsü ilə məşğul olan Respublika Partiyasının yerini Paşinyanın partiyası tutub. Ekspert hesab edir ki, öncəki iqtidar partiyası kriminal oliqarxiyanın "siyasi dizaynı" idi, indiki partiya isə Paşinyanın ətrafındakı adamların vəzifə uğrunda çəkişməsi üzrə "siyasi dizayn"dır. Politoloq əlavə edib ki, demokratik ölkələrdə partiyalardakı qruplaşmalar ideoloji əsaslarda formalaşırsa, məsələn, liberal və ya mühafizəkar prinsipləri üzrə, Ermənistanda isə ideologiyadan kənar və liderə yaxın olmaq əsas götürülür. O əlavə edib ki, bu yaxınlarda dövlət nəzarət xidmətinin başçısı David Sanasaryanla səhiyyə naziri Arsen Torosyan arasında düşmənçilik həddinə çatan mübarizə də buna əyani misaldır. Ekspert bu çəkişmələrin iqtidar partiyasını və son nəticədə dövləti zəiflədəcəyini vurğulayıb: "Bəs bütün bunlar kimin lehinə işləyəcək? Əlbəttə, "Qarabağ klanı"nın. Aydındır ki, Paşinyanın başı çəkişmələrə qarşıdığı bir vaxtda o, Qarabağdakı rejimlə bağlı istəyinə nail olmayacaq. Lakin istənilən halda, belə qarşıdurmalar Qarabağ məsələsində Ermənistanın mövqelərini zəfilədir. Biz Qarabağı döyüşsüz təslim edə bilərik".

İndilikdə görünən budur ki, tərəflər mövqeyindən geri çəkilməyi düşünmür. Bu durumda yayılan məlumata görə, Paşinyan tezliklə "Qarabağ klanı"nın daha bir neçə nümayəndəsini həbsə atacaq. Xatırladaq ki, Nikol Paşinyan artıq "Qarabağ klanı"nın əsas lideri olan Köçəryanı yenidən həbsə atıb. Bundan əvvəl eks-prezident Qarabağın keçmiş və indiki separatçı rəhbərlərinin məhkəmədə iştirakı və girov təqdim etməsindən sonra, mayın 18-də azadlığını qazanmışdı. Ancaq o vaxt Ermənistan Baş Prokurorluğu bu qərara etiraz etmişdi. Bu etirazın arxasında baş nazirin iradəsinin dayandığı şübhə doğurmurdu. Məhz bundan sonra Paşinyan məhkəmə sistemindəki Sarkisyan-Köçəryan kadrlarına qarşı mübarizəyə başladı və şübhə yox idi ki, proseslər eks-prezidentin həbsxanaya qaytarılması ilə nəticələnəcək. Elə belə də oldu. Paşinyan şübhə etmir ki, ona ən ciddi təhlükə "Qarabağ klanı"nın iki liderindən, onların məhkəmə-hüquq, ordu və polis sistemindəki əlaltılarından gələ bilər. Odur ki, hökumət başçısı israrla rəqiblərinin kadrlarını təmizləmək işinə girişib. Digər tərəfdən, Paşinyan 2020-ci ildə Dağlıq Qarabağ separatçılarının başına özünə sadiq adamı "prezident" gətirmək planı üzərində işlədiyindən, klanın liderlərinə qarşı daha sərt hücumlar təşkil etməyi düşünür. "Qarabağ klanı" isə açıq bəyan edir ki, belə vəziyyət Dağlıq Qarabağın Azərbaycanın nəzarətinə qayıtması ilə nəticələnəcək. Qeyd edək ki, son həbsindən az əvvəl Köçəryan özü də bu xüsusda maraqlı açıqlamalar vermişdi. Ermənistanın sabiq prezidenti Paşinyan hökumətini sərt tənqid edərək, indiki hakimiyyəti Qarabağla bağlı təhlükəli siyasət aparmaqda günahlandırmışdı. Köçəryan İrəvanın "Beşinci Kanal"ına müsahibəsində demişdi ki, Paşinyan qondarma "DQR"in işlərinə çox qarışmaqla danışıqlar prosesində Ermənistanın mövqeyini zəiflədir və qondarma rejimin statusunu aşağı salır. "Mən Ermənistan prezidenti olandan sonra heç vaxt Qarabağın işlərinə qarışmamışam, bunu Serj Sarkisyan da etmirdi. Amma Qarabağ indiki hakimiyyət üçün dəyər deyil. İndiki hakimiyyət üçün Qarabağ ağır yükdür, dəyər yox. 90-cı illərdə Levon Ter-Petrosyanın idarəçiliyi dövründə də belə olub. Şüuraltı olaraq hakimiyyət düşünür ki, canını bu ağır yükdən necə qurtarsın". Ermənistanın baş naziri Dağlıq Qarabağdan olan siyasətçiləri ikili oyun oynamaqda ittiham etmişdi. Bu fonda Köçəryanın məlum açıqlamaları Paşinyan üçün xoşagəlməz perspektivlər vəd edirdi və o, bu fonda Köçəryanı yenidən həbsə göndərdi. İndi gözlənir ki, yaxın tezlikdə "Qarabağ klanı"nın digər təmsilçiləri ilə də bağlı eyni addım atılsın. "Qarabağ klanı"nın revanş istiqamətində atdığı addımlar isə vəziyyəti daha da qəlizləşdirir və erməni cəmiyyətini daha zəif hala gətirir. Məhz bu vəziyyətdə işğalçı ölkənin təcavüzkar Qarabağ siyasətini davam etdirə bilməsi də müşkül sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**